*Tanınmış şair, Bahadur Fərman (Abdullayev Bahadur Fərman oğlu) 77 yaşında haqq dünyasına qovuşdu. O, "Anamın laylası", "Dörd cığır", "Durnalar köçür", "Ömrün dolayları", "Əmanətdir ürəyim" kitablarının müəllifi idi.*



■ Bahadur Fərman

## BAHAR HƏSRƏTİ

Sizə qurban olum, tər bənövşələr,
Yazdan soraq verin, qış uzanmasın.
İnamım, ümidim buz içindədir,
Bahar həsrətiylə can usanmasın.

Bilmirəm inamdır, yoxsa təsəlli,
Qəlbimdə ümidə bükülən qubar?
Bir zərif, bir incə tər bənövşənin
Ləçəyi üstündə gəlirmi bahar?

Günəşdən nur əmib hey zərrə-zərrə
Gül açsın gülümüz, çiçəyimiz də.
Bu çirkin dünyanı gözəlləşdirən
Sevgilər göyərsin ürəyimizdə.

Bahar istəyirəm, təzə-tər bahar,
Oyanan torpağın nəfəsi gəlsin.
Ömrünün qışını yaşayanların
Təzədən yaşamaq həvəsi gəlsin.

Tez açın, tez gəlin, sıxıldı könlüm,
Yolda ləngiməyin, yolda qalmayın.
Sizə qurban olum, tər bənövşələr,
Siz Allah, sözümü yerə salmayın...

## ÜZÜMÜN ÜSTƏ

Saralır, tökülür gün puçur-puçur,
İllər ömrümüzə təzə don biçir,
Gəl inad eləmə, ömür-gün keçir,
Yerin boş qalmasın gözümün üstə.

Qoy hicran sel kimi axıb gəlməsin,
Siz Allah, göz qoyun, baxın, gəlməsin.
Rəqibə deyin ki, yaxın gəlməsin,
Yazıqdır, yanacaq közümün üstə.

Adımı görəndə qara çəksələr,
Hara çağırsalar, hara çəksələr,
Lap məni yüz dəfə dara çəksələr,
Ölsəm də, duracam sözümün üstə.

Dərdimi sulayır gözümdəki nəm,
Açıb söyləmir ki, nə istəyir qəm?
Sənə duaçıyam, mənim bir dənəm,
Torpaq tökülüncə üzümün üstə.

## TORPAQDAN ÖZGƏ

Fikirlər içində yoruldu beyin,
Bu necə tilsimdi, açılmır düyün.
Ayrı qiblə seçsəm, haramdı deyin,
Mənə doğma olan ocaqdan özgə.

İnamın yoxdusa sözümə - heç nə,
Çəksən yaxşılığı üzümə - heç nə.
İşıq verən deyil gözümə heç nə,
Evimdə nur saçan çıraqdan özgə.

İşlərim yarımçıq, yapa bilmədim,
Dərdim qaya kimi, çapa bilmədim.
Rahat yer aradım, tapa bilmədim
Anamın yatdığı torpaqdan özgə.

## SAXLAMIŞAM

Mən sizin qapını döyə bilmirəm,
Tilsimə düşmüşəm niyə, bilmirəm.
Hələ ki adını deyə bilmirəm,
Sən kimsən, sən nəsən, sirr saxlamışam.

Tələsmə saçımda dəni görməyə,
Dağlarda dumanı, çəni görməyə,
Qəfildən kor olsam, səni görməyə,
Kor gözün içində nur saxlamışam.

Dərdlini dərdlilər duyur, əzizim,
Qəhəri göz yaşı yuyur, əzizim,
Nə zaman istəsən buyur, əzizim,
Gözümün üstündə yer saxlamışam.

* * *

Nə yazım şeirimin təzə sətrinə,
Bələnsin kədərin, qəmin ətrinə?!
Ağrının xətrinə, dərdin xətrinə,
Hərdən qırıq-qırıq güləsiyəm mən.

Dözdün əzabıma, nə idi qəsdin,
Qadanın-bəlanın yolunu kəsdin.
Nanə yarpağıtək titrədin, əsdin,
Elə bil gözünün giləsiyəm mən.

İmkan olan yerdə baxtım olmayıb,
Yaxşı bilirsən ki, taxtım olmayıb.
Şahənşah olmağa vaxtım olmayıb,
Dərdimin, qəmimin köləsiyəm mən.

Bir dənəm, qulaq as, sözümü kəsmə,
Çox da əzizləyib üstümdə əsmə.
Sənə qurban olum, incimə, küsmə,
Vaxt gəlib çatanda öləsiyəm mən.

## ŞEİRİM

Bəzən incimişəm özüm özümdən,
Könlümə nə qədər qada vermişəm.
Nə hasil olacaq yazı-pozumdan...
Deyəsən, ömrümü bada vermişəm.

Borc ödənə bilməz beş-üç şeirlə,
Nə vaxtdan bəridir fikrə dalmışam.
Kimi ovsunlayım mən bu şeirlə,
Anama, Vətənə borclu qalmışam.

Torpaq nələr çəkib güllər bitincə,
Yüz dəfə keçmişəm dərd tıxacından.
Bir şeir yazılıb sona yetincə
Asılı qalmışam dar ağacından.

Hələ ki, məğlubuq, sinəmizdə dağ,
Söylə həqiqəti, nə gizlə, nə dan.
Bir dəli şeirim var, adı "Qarabağ",
Oxuya bilmirəm utandığımdan.

Sevgi şeirləri yazmışam hərdən,
Mən ki məhəbbəti uca bilmişəm.
Nə vaxt ki, sevmişəm o məqamda mən
Göylərdə quş kimi uça bilmişəm.

Bir tikə pay ummaz çörəyinizdən,
Deməyin, deməyin nə xeyirləri.
Azaldar ağrını ürəyinizdən,
Arabir oxuyun bu şeirləri,
Siz Allah, oxuyun bu şeirləri...

## GEDƏK DAĞLARA

Qışı ötüb, yazı gəlib,
Gedək dağlara, dağlara.
Gül-çiçəyin nazı gəlib,
Gedək dağlara, dağlara.
Nə gözəldi gül isməti,
Bulud öpmək dağ qisməti.
Əldən vermə bu fürsəti,
Gedək dağlara, dağlara.

O döşdəki cüyürdümü,
Bizdən ürküb yüyürdümü,
Cığır düyür-düyürdümü?
Gedək dağlara, dağlara.

Eniş olsun, yoxuş olsun,
Narın yağan yağış olsun,
Bir ilahi baxış olsun,
Gedək dağlara, dağlara.

Bu şeirə duz atmağa,
Kasıb sözə söz qatmağa,
Ömrü bir az uzatmağa
Gedək dağlara, dağlara.

Nazlı baxış oğrundumu,
Könlü bizə vurğundumu,
Gör Bahadur yorğundumu?
Gedək dağlara, dağlara.

## NƏ ÇƏKDİ

Başımızın üstü göydü,
Bu nə haydı, bu nə küydü?
O çəməni dolu döydü,
Çiçək nə çəkdi, nə çəkdi.

Ürəklərə güman çökdü,
Nigaranlıq ağır yükdü.
Dəli külək yolub tökdü,
Ləçək nə çəkdi, nə çəkdi.

Dərd yüyürüb yetən oldu,
Pöhrələyib bitən oldu.
Ağrılara vətən oldu,
Ürək nə çəkdi, nə çəkdi.

## GÖZLƏRİNƏ TAPŞIR MƏNİ

Neçə yerdə sözüm düşüb,
Ürəklərə közüm düşüb.
Gözlərinə gözüm düşüb,
Gözlərinə tapşır məni.

Gözlər məni hara çəkir,
Ağ könlümə qara çəkir.
Gündə yüz yol dara çəkir,
Gözlərinə tapşır məni.

Baxışınla dünyam gülə,
Qəm əriyə gilə-gilə.
A birdənəm, insaf elə,
Gözlərinə tapşır məni.

Dəli hicran gözləsin qoy,
Addım-addım izləsin qoy.
Bəbəyində gizləsin qoy,
Gözlərinə tapşır məni.

